# VƏTƏN SEVDALI ŞAİR



Müqəddəs söz, poeziya, ədəbiyyat öz aktuallığını itirməyib. Əsrlər ötsə də bəşərin sözə, poeziyaya və ədəbiyyata olan marağı itməyəcəyinə əminəm. Çünki müqəddəs söz insanın formalaşmağına xidmət göstərir. İnsanı şəxsiyyət kimi formalaşdırır, yüksəldir. Bəşərin ən sayılıb seçilən insana çevirməsinə yol açır.

İstər səmavi kitablar olsun, istərsə də bəşəri təfəkkürün məsulu olan dünyanın ən dəyərli kitabları hər birimizin həyatında necə böyük rol oynadığını sirr deyil.

Dünyanın digər xalqları kimi bizim xalqımızın yaratdığı ədəbiyyatın da özünəməxsus zənginliyi var. İstər şifai xalq ədəbiyyatımız, istərsə də yazılı ədəbiyyatımız olduqca maraqlıdır.

Nənələrin çəkdiyi bayatılardan, dediyi laylalardan və söylədiyi nağıllardan bilinir ki, ədəbiyyatın yaranmasında və formalaşmasında onların da rolu az olmayıb. Almaz Alıqızı folklor ənənələrinə bağlı şairdir. Onun bayatıları səmimi ruhu ilə seçilir. Yazılı ədəbiyyatda da biz bunu görürük. Qadın yazarların ərzuzda, hecada, sərbəstə və digər ədəbi janırlarda yaratdığı ədəbi nümünələr buna əyani sübutdur. Onların qələmə aldığı əsərlər hər birimizdə maraq doğurur. Çünki onların qələmin məsulu olan ədəbi nümünələr, həm də bir qadın ürəyin hissidir, duyğusudur.

Belə gözəl şeirlər müəlliflərindən biri də Almaz Alıqızıdır. Kifayət qədər tanıdığımız, imzası oxucular tərəfinə maraq yaradan Almaz xanımın ədəbiyyata, poeziyaya olan marağı hələ erkən yaşlarında özünü göstərib. İlk şeiri Ağdamın "Lenin yolu" qəzetinə çap olunub.

Almaz Alıqızının mənə hədiyyə etdiyi yenicə nəşr olunmuş "Zəfər köynəkli vətən" şeirlər kitabı onun sayca dördüncü kitabıdır. Bu kitabda şairin şeirləri ilə bərabər iki poeması da yer alıb.

Almaz Alıqızı 1957 –ci ildə Ağdam rayonun Sarıcalı kəndində anada olub. O da digər soydaşları kimi 90 –cı illərdə acı –ağrılı günlər yaşayıb. Doğma el –oba həsrəti, yurdundan didərgin düşən Almaz xanımın taleyinə də böyük təsir göstərib. Onun bu kitabında üç dövr özündə əxz etdirir. 30 il Qarabağ həsrəti, yurd ağrısı, 44 günlük Vətən Müharibəsi və ondan sonrakı Qələbə sevinci onun bütün şeirlərində özünü göstərir.

Daha azad olub Qarabağımız,
Zəfər ətirlidir könül bağımız.
və yaxud
Yenə Qarabağım cənnət olacaq,
Bülbül cəh –cəhiylə güllər açacaq.
və ya
Xoş günlərə, xoş növrağa gəlirik,
Qarabağda yaşamağa gəlirik.

Bu bəndlərdə şairə Almaz Alıqızının ürəyində 30 ildən sonrakı Qələbə sevincini və doğma yurd yerlərinə dönəcəyini xoş hisslərlə qələmə alıb. Onun bu sevinci, xalqımızın və qararabağlıların sevincidir. Hər birimiz bu Qələbəni 30 illə yaxın səbirsizliklə gözləmişik. Bu gün isə Zəfər sevinci ruhumuzu oxşayır.

Almaz xanımın Vətən Müharibəsindən bir neçə ay əvvəl qələmə aldığı "Qarabağda zəfər çal" şeirində üzünü əsgərlərə tutaraq, ümidi yalnız Ali Baş Komandana və ordumuza olduğunu bir daha özünü göstərir;

Qeyrət libasına girib savaşa,
Ana vətənimin mərd igidləri.
Allahım, onları sən özün qoru,
Tezliklə eşidək zəfər xəbəri.
Ali Baş Komandan irəli –dedi,
Qarabağ eşqilə çağladı ürək.
Doğma Qarabağı azad etməyə,
Yolumuz haqq yolu, haqq yolun gedək.

Almaz Alıqızı bir şair kimi, ələbəttə, baş verən bu hadisələrdən kənarda qala bilməzdi. Bu ağrılar hamsı onun taleyindən keçib. İllər üzünü Ağdamın həsrətini yaşayıb. 90 –cı illərdə düşmən işğalına məruz qalan Ağdam, həm də onun yaddaşı və xatirələridir.

İnsanın yaddaşı və xatirələri hardansa zərbə alanda, uzun illər o zərbənin əzabını çəkmiş olur. Mühariblər həmişə insanın taleyinə təsir göstərib. Savaşlarda insan ölümü heç də asan deyil. Zaman –zaman yaddaşlarda iz buraxır.

Müharibə mövzusunda çox əsərlər yazılıb, onların hamısında insanların çəkdiyi əzablar, acılıqlar sözlə ifadə etmək, ələbəttə, çətindir.

Ayrılıq, həsrət bizim taleyimizdədir. Bir Azərbaycanlı olaraq bunu hər zaman özümüzdə hiss eyləmişik. Bölünmüş parampərça olunan vətənimiz ürək dağmımızdır. Təbriz həsrəti, Borçalı dərdi, İrəvan ağrısı hər birimizi köz –köz yandırır.

Almaz Alıqızının "Arazın göz yaşı" şeirində bu ağrılar özünü göstərir;

İndi sən də yan, Araz,
Mənim göz yaşlarımı,
Qarışdır, göz yaşına,
Axıt Xəzərə, Araz.

Hara çəkir, Savalan,
Haray çəkir, Zəngilan.
Qanlı göz yaşı axır,
Axıb sənə qarışır...

Olduqca çox təsirli misralardır. Bu mövzuda, yəni Cənubi Azərbaycan mövzusunda çoxlu şeirlə və iri həcmli əsərlər qələmə alınıb. Onların hamsı vətən ağrısını, xalqın dərdini özündə ehtiva edib. Bu torpağın övladı olaraq şairlər, yazıçılar belə mövzulardan kənarda qalıb yazmaya bilməzlər. O cümlədən Almaz Alıqızı da. Özünəməxsus ifadələrlə xalqın ağrısını, nisgilini misralara çevirib. Öz poetik fikirləriylə Almaz xanım çox gözəl ədəbi nümünlər yarada bilib. Onun digər şeirləri də belə maraqlı və özünəməxsus fikirlərlə doludur. Almaz xanımın hər bir şeirindən nümnə gətirmək olar. Çünki onun qələmə aldığı misralar həm onun öz ağrısı, nisgilidir, həm də hər birimizin. Bir xalq olaraq kədəri də, həsrəti də, sevinci də birlikdə yaşamışıq.

Almaz Alıqızının bu kitabda yer alan "Qan yaddaşım Xocalı" epik poeması iri həcmli deyil, amma müəllif Xocalıda baş verən hadisələri bədii ruhda, dəqiqliklə ifadə edib.

Erməni vəhşilərin qurbanı olan Xocalı soydaşlarımızın çəkdiyi zülmü, əlbəttə, tarix unutmaz. Bu soyqırım hadisəsi ermənilər tərəfindən törədilən ən böyük cinayətdir. Təbii ki, Xocalı soyqırımı haqqında nə qədər kitablar yazılsa belə, yenə bu mövzu bitməz. Dinc əhaliyə qarşı törədilən cinayət və tökülən qanlar yerdə qalmayacaq.

Bu poemadan da çoxlu nümunələr gətirmək olar. Çünki Almaz xanımın hər bir misrası rəssamın çəkdiyi tabloya bənzəyir. Poeziyasevərlər bu kitabı oxusalar çox məmun qalacaqlar. Təbii ki, kitab haqqında yazılan məqalə, o kitabı tam əhatə eyliyə bilməz.

Əminəm ki, Almaz xanımın "Zəfər köynəkili vətən" kitabı oxucular tərəfindən böyük maraqla qarşılanar. Çünki onun vətənpərvəlik hissi və istedadı bunları deməyə mənə əsas verir.

Nəcib xanınım, səmimi şair Almaz Alıqızına yeni yaradıcılıq uğurları arzulayıram.

***02 may, 2022 –ci il***



***İltimas SƏMİMİ***